

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 203 (21.864)

26 oktyabr 2017-ci il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan şəhərində yeni istehsal müəssisəsi fəaliyyətə başlayıb





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Sahibkarlığın inkişafı Azərbaycanın ümumi inkişafının əsas şərtidir".***

Bu gün muxtar respublikada sahibkarlıq davamlı dövlət qayğısı ilə əhatə olunub. Daxili tələbatı ödəyən, keyfiyyətli və ixracyönümlü məhsul istehsal edən müəssisələrin yaradılması istiqamətində ardıcıl tədbirlər görülür.

Oktyabrın 25-də "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin istilik panelləri və dam örtükləri istehsalı müəssisəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

"Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının sədri Vüqar Abbasov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar yaradılmışdır. Müasir texnologiyaların tətbiqi və qabaqcıl idarəetmə təcrübəsindən istifadə rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin yaradılmasına və keyfiyyətli məhsul istehsalına imkan verir. Muxtar respublikada istilik panellərinə və dam örtüklərinə olan tələbat nəzərə alınaraq "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istilik panelləri və dam örtükləri müəssisəsi yaradılmışdır. Yeni müəssisə daxili tələbatı ödəməklə yanaşı, həm də geniş ixrac imkanlarına malikdir. Vüqar Abbasov sahibkarların fəaliyyəti üçün yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada daxili tələbatı ödəyən və ixracyönümlü məhsul istehsal edən yeni müəssisənin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün Azərbaycan müstəqil ölkədir. Hər bir müstəqil ölkədə isə ərzaq təhlükəsizliyinin təmin olunması, sənayenin inkişafı, yerli istehsal hesabına daxili tələbatın ödənilməsi, yeni iş yerlərinin açılması və daxili bazarın qorunması qarşıda duran əsas vəzifələrdir. Ölkəmizdə bazar iqtisadiyyatının tətbiq olunması öz bəhrəsini vermişdir. Muxtar respublikada qeyd olunan sahələrin inkişafı diqqətdə saxlanılır, Sahibkarlığa Kömək Fondunun kreditləri və sahibkarların öz vəsaitləri hesabına yeni istehsal sahələri yaradılır, daxili tələbat ödənilir, xaricə valyuta axınının qarşısı alınır, sahibkarlıq müəssisələrinin ixrac imkanları genişləndirilir. Bu gün istifadəyə verilən müasir istehsal müəssisəsi də Sahibkarlığa Kömək Fondunun krediti və müəssisənin gəliri hesabına yaradılmışdır.



Ali Məclisin Sədri demişdir: Bu gün muxtar respublikada dövlət tikintisinin həyata keçirilməsi, əhali tərəfindən yeni mənzillərin tikilməsi, eləcə də istehsal və xidmət sahələrinin yaradılması dam örtüklərinə və istilik panellərinə olan tələbatı artırmışdır. İstifadəyə verilən istilik panelləri və dam örtükləri müəssisəsi keyfiyyətli məhsul istehsalına və daxili tələbatın tam ödənilməsinə imkan verəcəkdir. Keyfiyyətli və rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin yaradılması sahibkarlığın inkişafında başlıca şərtdir. Ona görə də istehsal müəssisələrində müasir avadanlıqlar quraşdırılmalı, keyfiyyətli xammaldan istifadə olunmalı və keyfiyyət amilinə ciddi diqqət yetirilməlidir. Fəaliyyətə başlayan hər bir müəssisə həm muxtar respublika əhalisini keyfiyyətli məhsullarla təmin etməli, həm də xarici bazarlara məhsul çıxartmalıdır. Bu gün muxtar respublikada yaradılan şərait sahibkarlıq müəssisələrinin xarici bazarlara çıxış imkanlarını artırır. Sahibkarlar bu imkanlardan səmərəli istifadə etməli, keyfiyyətli məhsul istehsalına və yerli mütəxəssislərin hazırlanmasına diqqət artırılmalıdır. Mütəxəssis hazırlığı keyfiyyətli məhsul istehsalında başlıca şərtdir. Muxtar respublikadakı peşə məktəblərində və sahibkarlıq müəssisələrində yaradılan şərait mütəxəssis hazırlığı üçün geniş imkanlar açır.

Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmizdə sahibkarlığın inkişafı üçün hərtərəfli şərait yaradılmışdır. Ölkə başçısı ümummilli liderimizin yolunu uğurla davam etdirir, hər il sahibkarlıq fəaliyyəti ilə bağlı qərarlar qəbul olunur, müvafiq Sərəncamlar imzalanır. Həmçinin bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq istehsal müəssisələri dövlət tərəfindən özəlləşdirilərək sahibkarlara verilmişdir. Bu da sahibkarlıq sinfinin formalaşmasına və onların səmərəli fəaliyyət göstərməsinə geniş imkanlar açır. Ona görə də sahibkarlar fəaliyyətlərini daha da gücləndirməli, daxili tələbat yerli istehsal hesabına ödənilməli, sahibkarlıq müəssisələrində ixracyönümlü məhsul istehsal olunmalı, ölkəmizə valyuta axını təmin edilməlidir. Yeni müəssisələrin qurulması həm də yeni iş yerlərinin açılması deməkdir. İş yerlərinin açılması isə məşğulluğun təmin olunmasına və insanların yaşayış səviyyəsinin yaxşılaşmasına xidmət edir. Bir sözlə, dövlət-sahibkar münasibətləri, sahibkarların fəaliyyətinin tənzimlənməsi sahəsində görülən işlər ölkəmizin dayanıqlı inkişafını təmin edir. Muxtar respublikada da aid təşkilatlar sahibkarların fəaliyyətinə və istehsal olunan məhsulların ixracına hərtərəfli köməklik göstərməlidirlər.

Ali Məclisin Sədri demişdir: Bəzən sahibkarlar yalnız daxili bazarın tələbatını ödəmək üçün məhsul istehsal edirlər. Bu, sahibkarlığın inkişafına və müəssisələrin fəaliyyətinin genişləndirilməsinə mane olur. Hər bir sahibkar bilməlidir ki, yeni texnologiyalar tətbiq olunmadan, ixracyönümlü məhsul istehsal etmədən müəssisələrin inkişafına və keyfiyyətli məhsul istehsalına nail olmaq mümkün deyil. Ona görə də sahibkarlar yeni texnologiyaların tətbiqini və ixracyönümlü məhsul istehsalını daim diqqətdə saxlamalıdırlar.

Ali Məclisin Sədri yeni istifadəyə verilən müəssisədə istehsal olunan məhsulların daxili tələbatı ödəyəcəyinə və xarici bazarlarda layiqli yer tutacağına əminliyini bildirmiş, təşkilatçılara təşəkkür etmiş və müəssisəyə fəaliyyətində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, müəssisənin yaradılmasına 6 milyon 560 min manat vəsait sərf olunmuş, 5620 kvadratmetr sahədə dam örtükləri, istilik panelləri və boyama istehsalı xətləri yaradılmış, müasir avadanlıqlar quraşdırılmışdır. İstilik panelləri sahəsinin gücü ayda 9500 metr panel və 8000 metr alüminium radiator, dam örtükləri sahəsinin gücü isə ayda 250 min kvadratmetr metal dam örtüyüdür. Standartların tələblərinə uyğun istehsal olunan məhsulların 20 faizi yerli tələbatı tam ödəyəcək, 80 faizi isə ölkəmizin digər bölgələrində və xarici bazarlarda satışa çıxarılacaqdır.

Binada iş otaqları, iclas zalı, mətbəx, tornа və dülgər emalatxanaları, tikinti materiallarının satış mərkəzi, hazır və ehtiyat hissələri anbarları da istifadəyə verilmiş, 120 nəfər işlə təmin olunmuş, işçilər üçün xidməti otaqlar yaradılmışdır. Müəssisədə təhlükəsizlik tədbirlərinə də diqqət artırılmış, video-müşahidə sistemi quraşdırılmış, işçilər pulsuz nahar yeməyi, xüsusi geyim forması və nəqliyyatla təmin olunmuşlar.



## Plastik boru, profil və aksesuarlar istehsalı müəssisəsi yaradılır

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində yeni yaradılacaq plastik boru, profil və aksesuarlar istehsalı müəssisəsinə də baxmışdır.

Bildirilmişdir ki, əsas tikinti işləri başa çatdırılmış müəssisədə Türkiyə, Çin və Tayvan istehsalı olan tam avtomatlaşdırılmış avadanlıqlar quraşdırılacaq, 38 istehsal sahəsi və müasir laboratoriya istifadəyə veriləcəkdir. Gücü ayda 1500 ton olacaq müəssisədə qapı-pəncərə profilləri, polipropilen əsaslı kompozit və sadə içməli su, eləcə də polietilen suvarma boruları, lambir, saydinq və aksesuarlar, müxtəlif boru fitinqləri olmaqla 7 növdə və 160 çeşiddə məhsul istehsal olunacaq, daxili tələbat ödənilməklə yanaşı, geniş ixrac imkanları da yaradılacaqdır. Müəssisədə 285 yeni iş yeri açılacaqdır.

Ali Məclisin Sədri müəssisədə istehsal olunacaq məhsulların nümunələrinə baxmış, keyfiyyətli məhsul istehsalı, işçi-sahibkar münasibətlərinin tənzimlənməsi, sahibkarlar arasında əlaqələrin gücləndirilməsi ilə bağlı aid təşkilatlara tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**




## “Baş” romanı oxunması zəruri olan kitabların siyahısına daxil edilib

Xalq yazıçısı Elçin Əfəndiyevin “Baş” romanı “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində yeni tərtibatda 500 nüsxə nəşr olunaraq Naxçıvan Muxtar Respublikasının Təhsil, Mədəniyyət və Turizm nazirliklərinin tabeliyində olan kitabxanalara, Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzinə, Naxçıvan Muxtar Respublika Kitabxanasına, elm, ali və orta ixtisas təhsili müəssisələrinin kitabxanalarına göndərilmişdir.

Gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın formalaşdırılmasına xidmət göstərən yaradıcılıq nümunəsi olması nəzərə alınaraq “Baş” romanı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 avqust 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Oxunması zəruri olan kitabların siyahısı”na əlavə edilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

***Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı***

## Zəngin tarixi-mədəni irsi, geostrateji mövqeyi Naxçıvanın İslam mədəniyyətinin mərkəzi kimi əhəmiyyətini daha da artırır

***Bu gün geniş coğrafiyanı əhatə edən, çoxsaylı xalqları özündə birləşdirən İslam mədəniyyətinin daşıyıcısı olan ölkələr arasında zamanın tələbinə çevrilmiş həmrəyliyin, birliyin təmin olunması üçün önəmli layihələr reallaşdırılır. Bu məsələlərdə təşəbbüskarlığı ilə seçilən Azərbaycan Respublikasında bu ilin “İslam həmrəyliyi ili” elan edilməsi mühüm tarixi əhəmiyyətə malik olmaqla bərabər, bu həmrəyliyin formalaşdırılmasına yönələn bir təşəbbüs kimi alqışlanıb. Bir neçə aydan sonra ölkəmiz qədim Naxçıvanın timsalında bu məsələdə özünün liderliyini daha irəli mərhələdə davam etdirəcəkdir. Tarixən İslam sivilizasiyasının əsas mərkəzlərindən biri sayılan, İslam dininin yayılmasında və eyni zamanda müsəlman intibahının yaranmasında önəmli rol oynayan qədim diyarımız həmin il daha bir mühüm tarixi missiyanı yerinə yetirəcək – Naxçıvan şəhəri İslam mədəniyyətinin paytaxtı olacaq, güclü potensiala malik İslam dünyasının bir il ərzində qlobal arenada mədəniyyət bayraqdarı kimi çıxış edəcəkdir.***

Onu da qeyd edək ki, Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsində bir sıra mühüm məqamlar əsaslı rol oynayıb. Həmin məqamların hər biri həm ayrılıqda, həm də ümumilikdə, əhəmiyyətli amillər kimi diqqəti cəlb edir və əslində, bir-birini tamamlayır. Naxçıvan möcüzəsi də məhz budur: səbəblər zənciri möcüzəvi sinerji yaradır və dahilər yurdunu İslam mədəniyyətinin mərkəzinə çevirir. Onları sıralamaq o qədər asan olmasa da, tarixi proseslərə məhz xronoloji ardıcıllıqla diqqət yetirməklə bəzi məsələlərə aydınlıq gətirmək mümkündür. Naxçıvanı İslam mədəniyyətinin paytaxtına aparan yolda önəmli məqamlar isə, zənnimizcə, aşağıdakılardan ibarətdir:

### *Naxçıvan bəşəriyyətin ikinci atası hesab edilən Nuh Peyğəmbərin yurdudur*

Məlumdur ki, qoca Şərqin qapısı Naxçıvan təkcə Azərbaycanın, türk-islam aləminin deyil, həm də dünyanın ən qədim yaşayış məskənlərindəndir. Dünya tufanı zamanı Nuh Peyğəmbər və ona iman gətirənlərin mindikləri gəminin Naxçıvanda quruya çıxması və insanların burada məskən salması dünya şöhrətli alimlərin araşdıraraq gəldikləri elmi nəticələrdə də öz əksini tapıb. Həmin hadisə barədə məlumatların müqəddəs “Qurani-Kərim” və “İncil”də mövcudluğu, həmçinin “Bilqamıs” dastanında və muxtar respublikanın Ordubad rayonunun ərazisində yerləşən Gəmiqaya qayaüstü yazı və rəsmlərində əks olunması bu reallığı göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 12 sentyabr tarixli “Naxçıvan Duz Muzeyinin yaradılması haqqında” Sərəncamında bu məqamlar xüsusilə qeyd olunub. Naxçıvanın təbliği baxımından böyük əhəmiyyətə malik olan həmin sərəncamda deyilir: *“Naxçıvanın Nuh Peyğəmbərlə bağlılığı hələ qədim dövrlərdən diqqəti cəlb etmiş, yunan alimi Klavdi Ptolomey bizim eranın ikinci əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh Peyğəmbərin məskəni kimi xatırlatmış, on altıncı əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas Əl-Şərifi Nuh Peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir.*

*Rus tədqiqatçısı Konstantin Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunan “Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi”ndə verilən “Naxçıvan mahalı və Naxçıvan şəhəri” adlı irihəcmli məqaləsində Nuh Peyğəmbərin özünün duz mədənində ilk çalışanlardan olması, şəhər əhalisinə duz çıxartmağı öyrətməsi qeyd olunur. Tədqiqatlar göstərir ki, bu ərazidə Eneolit dövründən başlayaraq duz mədənçiliyinin əsası qoyulmuşdur. Bu isə 5 min illik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir”.*

Bütün bunlar bir daha təsdiq edir ki, Naxçıvan təkcə İslam aləmi üçün deyil, bütün dünya xalqları üçün bəşəriyyətin ikinci yaradılış yeri hesab edilir və bu, onu cazibə mərkəzinə çevirir. Məhz buna görə də bir çox ekspertlərin fikrincə, bu gün Naxçıvan İslam mədəniyyətinin paytaxtı adına layiq olmaqla yanaşı həm də sivilizasiyalararası dialoqun ideal mərkəzi kimi çıxış etməyə, dünya mədəniyyətinin mərkəzi olmağa layiqdir.

### *Naxçıvan tarixən elm və mədəniyyət mərkəzi olub*

Tarixçi alimlərimizin də qeyd etdiyi kimi, əsrlər boyu çox böyük inkişaf yolu keçən Naxçıvan şəhəri hələ eramızın əvvəllərindən mühüm iqtisadi-mədəni və inzibati mərkəz kimi tanınıb. Tarixdə iz qoyan bir sıra əhəmiyyətli dövlətlərin dayaq məntəqəsi, paytaxtı olub. Naxçıvan şəhəri Avropa ilə Asiyanı birləşdirən Böyük İpək Yolunun üzərində yerləşir. Qədim diyar ilə Kiçik Asiya, Orta Şərq və Zaqafqaziya ölkələri arasında əlaqələr xüsusilə sıx olub. Naxçıvanda hələ İslam dini yayılmamışdan əvvəl böyük mədəniyyət formalaşıb, elm, ədəbiyyat inkişaf edib.



Bu il iyulun 7-də “Naxçıvan” Universitetində “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” mövzusunda keçirilən beynəlxalq konfransda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu barədə deyib: ***“Naxçıvan ən qədim dövrdən başlayaraq türk mədəniyyətini günümüzə qədər gətirib çıxarmışdır. Neolit, Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin nadir inciləri, beş min il bundan əvvəl yaradılan ilkin şəhər mədəniyyəti, insan düşüncəsinin ilk yazılı ifadəsi olan Gəmiqaya abidələri, milli varlığımızın ifadəsinə çevrilən “Kitabi-Dədə Qorqud” dastanı Naxçıvanda İslam dini qəbul olunana qədərki mədəniyyətin nümunələridir… 653-cü ildən sonra isə bu mədəniyyət islam mədəniyyəti ilə vəhdətdə inkişaf etmişdir...”***

### *Naxçıvan İslam dünyasına böyük alimlər bəxş edib, İslam memarlığı məktəbi yaradılıb*

Bu diyarın şöhrət tapması, elm, mədəniyyət beşiyi hesab edilməsi həm də onun bu sahələrin inkişafına əvəzsiz töhfələr verən elm xadimlərinin Vətəni olması ilə bağlıdır. İslam dini Azərbaycanda yayıldıqdan sonra Naxçıvanda İslam dünyasının üzünə böyük bir elm, mədəniyyət xəzinəsi də açılıb. Bu xəzinə birgə İslam mədəniyyətinin formalaşmasında lokomotiv rolunu oynayıb. Naxçıvanda İslam dininin qəbul edilməsindən sonrakı dövrdə bu diyar şairləri, elm xadimləri, filosofları, mütəfəkkirləri, sənətçiləri və məşhur mədəniyyət nümunələri ilə İslam dünyasının inkişafına əsaslı töhfələr verib. Deyilənləri təsdiq etmək üçün onlardan bir neçəsini vurğulamaq belə, kifayətdir.

“Qurani-Kərim”i təsəvvüf üslubunda şərh edən ilk alim kimi tarixə düşən *Baba Nemətullah Naxçıvani* İslam dünyasına şan və şərəf gətirib, İslam dininin elmi baxımdan öyrənilməsinə əvəzsiz töhfələr bəxş edib. Nemətullah Naxçıvani məktəbi keçən din xadimləri İslam dünyasının dörd bir tərəfində bu dinin güclənməsində, cəhalətin qarşısının alınmasında əsaslı rol oynayıblar.

Qədim diyarın digər bir elm xadimi, “Şərqin böyük dahisi” adlandırılan Nəsirəddin Tusi də elmin müxtəlif sahələri ilə dərindən maraqlanıb, astronomiya, riyaziyyat, fizika, tibb, fəlsəfə, etika, məntiq və elmin digər sahələrinə həsr olunmuş əsərlər yazıb. Onun yaradıcılığında astronomiya və riyaziyyat üzrə tədqiqatlar xüsusi yer tutur.

*Memar Əcəmi Naxçıvani* özünün əsrlərə şahidlik edən şah əsərləri ilə türk-islam dünyasında memarlığın inkişafında inqilabi yeniliklərə imza atıb. Onun Möminə xatın, Yusif Küseyir oğlu türbələri kimi ölməz sənət abidələri bu gün tarixə güzgü tutur. Tədqiqatçıların fikrincə, Marağa abidələri Azərbaycan memarlığının Naxçıvan məktəbinin ən mühüm xüsusiyyətlərini özündə əks etdirir. Bundan başqa, Yusif Küseyir oğlu türbəsi ilə Ərzincandakı Məlik Qazi türbəsi, Möminə xatın türbəsi ilə Konyadakı Qılınc Arslan türbəsi, Gülüstan türbəsi ilə Kayseri, Niğdə, Ərzurum və Amasya türbələri, Qarabağlar türbəsi ilə Sivasdakı Güdük Minarə eynilik təşkil edir. Bu da bir daha təsdiq edir ki, Memar Əcəmi tərəfindən əsası qoyulan Naxçıvan memarlıq məktəbi türk-islam dünyası memarlığının inkişafına mühüm təsir göstərib.

### *Naxçıvanda tarixi abidələr, o cümlədən İslam mədəniyyəti nümunələri yüksək diqqət və qayğı ilə əhatə olunub*

Naxçıvan Muxtar Respublikasının ərazisində İslam mədəniyyətini əks etdirən çoxsaylı tarixi-memarlıq abidələri mövcuddur. Bu mühüm maddi və eyni zamanda mənəvi sərvətlərimizin sırasında muxtar respublikanın müxtəlif bölgələrində yerləşən, peyğəmbər övladlarının dəfn olunduğu imamzadələrin özünəməxsus əhəmiyyəti, xüsusi yeri vardır. Naxçıvanın on üç əsrdən artıq bir dövrünü özündə təcəssüm etdirən bu dəyərli abidələr yalnız ölkəmizin deyil, bütövlükdə, müsəlman Şərqinin qədim sənətkarlıq, xüsusilə də memarlıq ənənələrinin, çoxəsrlik tarixi keçmişinin yadigarlarıdır.

Hazırda qədim diyarın ərazisində üç imamzadə var. Bunlar muxtar respublikanın paytaxtında yerləşən Naxçıvan şəhər İmamzadəsi, Babək rayonunun Nehrəm kəndində və Şərur rayonunun Xanlıqlar kəndindəki (Parçı) imamzadələrdir. Onlardan ikisi yüksək səviyyədə bərpa edilib, digərində isə bərpa işləri davam etdirilir.

“Qurani-Kərim”də geniş bəhs olunan Nuh Peyğəmbərin şərəfinə yüz illərdən bəri Naxçıvan şəhərində türbə ucaldılıb. Dağılmış, sıradan çıxmış həmin türbə son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində yenidən bərpa edilib. Müqəddəs kitabımızda adıçəkilən Əshabi-Kəhf ziyarətgahı da bu gün öz abadlığına görə yalnız İslamın yarandığı müqəddəs şəhərlərdəki ziyarətgahlarla müqayisə oluna bilər. Onu da qeyd edək ki, hazırda muxtar respublikada 211 məscid, 26 dini ziyarətgah vardır. Son 22 ildə Naxçıvan şəhərində, rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində yeni məscidlər tikilib, mövcud məscidlər təmir olunub, abadlaşdırılıb. Naxçıvanda 2000 nəfərin eyni vaxtda namaz qıla biləcəyi məscidin inşası da davam etdirilir.

Vaxtilə muxtar respublikamızın ərazisində inşa olunan zəngin tərtibatlı hamamlar da türk-islam mədəniyyətinin mühüm nümunələrindən biridir. Bu gün həmin tarixi-memarlıq abidələri mədəniyyətimizin nadir inciləri sırasına daxil edilib. Naxçıvan şəhərindəki Dədə Qorqud meydanında yerləşən XVIII əsrə aid İsmayılxan hamamı, Şərur rayonunun Yengicə kəndindəki Yengicə hamamı, Kəngərli rayonunun Şahtaxtı kəndindəki hamam, habelə Ordubad rayonu ərazisində yerləşən Vənənd, Nüsnüs, Yuxarı Əylis, Düylün və digər kəndlərdəki hamamlar tarixi-memarlıq, eləcə də mədəni abidə kimi mühüm əhəmiyyət kəsb edir. Hazırda Yengicə hamamında bərpa işləri davam etdirilir. Bunu da xatırlatmaq yerinə düşər ki, Naxçıvanda inşası İslam dininin yayılmasından sonrakı dövrə təsadüf edən əksər tarixi abidələr restavrasiya edilib.

Bəli, Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan edilməsinin səbəbi digər amillərlə yanaşı, həm də muxtar respublikada ziyarətgahların, dini-mədəni abidələrin bərpasının diqqət mərkəzində saxlanılmasıdır.

### *Paytaxt seçilmək üçün təkcə tarixi keçmiş deyil, həm də gələcək inkişaf perspektivləri, mövcud infrastruktur da əhəmiyyətli rol oynayır*

İslam mədəniyyəti paytaxtının seçilməsində şəhərlərin tarixboyu mədəniyyətə, ədəbiyyata, elmə verdiyi töhfələrlə yanaşı, həm də bundan sonrakı illərdə həmin sahələr üzrə verəcəyi töhfələr xüsusilə diqqətə alınır. Yəni təkcə keçmişdəki uğurlar İslam mədəniyyətinin paytaxtı olmağa kifayət etmir. Qeyd olunan keyfiyyətlərə malik olan şəhərlərin tarixi-mədəni varlığı üzərində qurulan bu günü də həmin məsələdə əsaslı rol oynayır. Çünki məqsəd İslam sivilizasiyasının dəyərlərinə əsaslanan bu gününü, həm də gələcəyini yaratmaqdır.

Məsələ bununla bitmir. Layihəyə əsasən hər hansı şəhərin İslam mədəniyyətinin paytaxtı elan olunması üçün həmin paytaxt ölkə və region səviyyəsində elmi-tədqiqat, arxeoloji təhsil mərkəzlərinə, fərdi və kollektiv şəkildə mədəni tədbirlər təşkil edən mədəniyyət qurumlarına, mükəmməl infrastruktura malik olmalıdır. Bu gün muxtar respublikamızda, o cümlədən Naxçıvan şəhərində həyata keçirilən genişmiqyaslı infrastruktur quruculuğu layihələri qədim diyarımızı cənnətməkana çevirib. Naxçıvan şəhərinin qədimliyi və klassik üslubu harmonik şəkildə müasir memarlıq nailiyyətləri ilə birləşib. Bütün bunlar Naxçıvanın regionun ən gözəl şəhərləri sırasında yerini daha da möhkəmləndirməsinə töhfə verir.

Bu gün Naxçıvan şəhərində reallaşdırılan layihələr nəticəsində muxtar respublika paytaxtının müasir siması yaradılıb, şəhər sakinlərinin, bura gələn qonaqların istirahətinin yüksək səviyyədə təşkili üçün yeni məkanlar qurulub, mövcud olanlar isə müasir səviyyədə abadlaşdırılıb. Bu qədim diyara gələn qonaqların, nüfuzlu alimlərin də qeyd etdiyi kimi, muxtar respublikanın paytaxtı qısa müddətdə əsaslı surətdə yenidən qurulub. Şəhərsalmada xüsusi diqqət yetirilən kərpic və şəbəkə elementləri burada Şərq memarlıq ənənələrini, şüşə və metal konstruksiyalardan istifadə isə Qərb inşaat texnologiyalarını üzvi vəhdətdə yaşatmağa xidmət edir. Müasir Naxçıvan Şərq mühitinin özünəməxsus aurasını və Qərbyönlü inkişafın əsas meyillərinin məcmusunu təcəssüm etdirir.

### *Sonda*

*Bütün bunlar bir daha belə deməyə əsas verir ki, Naxçıvan şəhəri öz qədimliyi və müasirliyi ilə İslam mədəniyyətinin paytaxtı olmağa layiq gözəl bir məkandır. Bu hadisə bəşəriyyətin bugünkü ümidsizlikdən, çaşqınlıqdan və xaosdan qarşılıqlı hörmət şəraitində birgə yaşadığı, mədəniyyət müxtəlifliyinin tanındığı və beynəlxalq hüquq prinsiplərinə tam riayət olunduğu zamana – ədalət və bərabərliyə söykənən sabitliyin, təhlükəsizliyin və sülhün yeni mərhələsinə can atdığı bir vaxta təsadüf edir. Bütün bu amillərin hər biri 2018-ci ildə Naxçıvan nümunəsi timsalında İslam aləminə, dünyaya təqdim ediləcəkdir. Bu, beynəlxalq ictimaiyyətin diqqətini ölkəmizə yönəldəcək, ümumdünya ictimai mövqeyin formalaşmasına yol açacaq, respublikamızın beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəkdir.*

**Rauf KƏNGƏRLİ**

## Ziyalı sözü

# Mənəvi inkişaf və tərəqqimizə dəyərli töhfə

***Sirr deyil ki, Naxçıvan Muxtar Respublikası ölkəmiz üzrə inkişaf və tərəqqinin, yeni təşəbbüslərin bayraqdarına çevrilmişdir. Sosial-iqtisadi inkişafın Naxçıvan modeli artıq beynəlxalq arenada da müsbət əks-səda vermişdir. Bu diyarda bütün bölgələrə abad yollar çəkilmiş, yeni məktəb binalarının tikintisi geniş vüsət almış, təhsil ocaqları kompüterləşdirilmiş, distant təhsil sistemi qurulmuşdur.***

Muxtar respublikada xalqımızın qədim mədəni irsinin qorunub yaşadılması, inkişaf etdirilməsi istiqamətində xeyli iş görülmüşdür. Əlincə qalası, Gülüstan türbəsi, Naxçıvanqala və digər qürur mənbəyimiz olan tarixi-memarlıq abidələrimizin bərpası gənc nəslin mənəvi tərbiyəsində çox böyük əhəmiyyətə malikdir. Eləcə də tarixi şəxsiyyətlərin, bu torpağın görkəmli yetirmələrinin yubileylərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsi, görkəmli ictimai-siyasi xadimlərin muzeylərinin fəaliyyətə başlaması mədəniyyətimizə böyük töhfədir. AMEA Naxçıvan Bölməsində, ali təhsil müəssisələrində elektron kitabxanalar yaradılmışdır.

Lakin etiraf edək ki, son illər ölkəmizdə televiziyanın, kommunikasiya vasitələrinin, internetin, sosial şəbəkələrin imkanlarının genişlənməsi XXI əsrin səciyyəvi göstəricisinə çevrilsə də, xalqımızın işıqlı gələcəyi olan gənclərimizin mütaliə mədəniyyətinə, kitab oxumaq vərdişlərinə xeyli mənfi təsir göstəribdir. Məsələn, elə Bakı şəhərinin özündə 117 kitab mağazasından indi cəmi 8-i fəaliyyət göstərir.

Heç kəsdən gizli deyil ki, cəmiyyətdə, xüsusilə gənclərdə kitaba, oxumağa biganə münasibət yaranmışdır. Onu da deyək ki, yaşadığımız XXI əsrdə gəncləri kitabı sevməyən və oxumayan heç bir ölkə inkişaf edə bilməz.



Mütaliə cəhalət və xurafatdan xilas olmaq deməkdir. Hələ XIX əsrdə Azərbaycan maarifçiləri – M.F.Axundzadə, H.Zərdabi, M.T.Sidqi, M.Şahtaxtlı və digər ictimai xadimlər bu sahədə böyük əmək sərf etmiş, xalqı oxumağa, elmə yiyələnməyə, əsl vətəndaş kimi fəaliyyət göstərməyə, maarif işığından bəhrələnməyə çağırmışlar. Müqəddəs “Qurani-Kərim”in ilk ayəsinin “Oxu!” əmri ilə başlaması da bu baxımdan xüsusi mənaya malikdir. Ancaq müasir dövrdə bu sahədə xoşagəlməz mənzərə yaranmışdır. Mütaliə mədəniyyətində sanki bir boşluq hökm sürür. Halbuki biz yaşlı nəslin yaxşı yadındadır ki, elə yaxın keçmişdə avtobusda, metroda gəncləri kitab mütaliə edən görərdik. Bəs indi XXI əsrdə nə etmək lazımdır ki, kitaba göstərilən bu soyuqluğun qarşısı alınsın, gənclər oxumağa alışsınlar, elm və texnikanın inkişafından bəhrələnsinlər, mənəviyyatlarını inkişaf etdirsinlər?

Bu sahədə çıxış yollarından biri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli “Oxunması zəruri olan kitablar haqqında” Sərəncamı ilə çox doğru şəkildə göstərilmişdir. Bu sərəncamda Azərbaycan və dünya ədəbiyyatının 30 ən qiymətli nümunəsinin mütaliə edilməsi tövsiyə olunmuşdur. Siyahıda qeyd edilən əsərlərin əhatə dairəsinin sonrakı mərhələlərdə daha da genişləndirilməsi nəzərdə tutulmuşdur. Adları sənəddə qeyd olunan kitablar tariximiz, mədəniyyətimiz və milli kimliyimiz haqqında dolğun məlumat verir, gənc nəslin həyat yolunun müəyyənləşdirilməsinə və dünyagörüşünün inkişaf etdirilməsinə xidmət edir. Həmin siyahıda gənc nəslin vətənpərvərlik tərbiyəsi, milli və mənəvi özünüdərki, dünyagörüşünü zənginləşdirən və daha da möhkəmləndirən kitablara üstünlük verilməsi diqqəti cəlb edir.

Ali Məclis Sədrinin sərəncamı ziyalılar, elm və təhsil müəssisələri qarşısında mühüm vəzifələr qoyur. Gəncləri oxumağa, mütaliəyə həvəsləndirmək bu təşkilatların əsas işi olmalıdır.

Oxumaq, mütaliə etmək mənəvi zənginliyə xidmət edir. Ona görə biz bu işlə mütəmadi olaraq məşğul olmalı, xalqımızın gələcəyi olan gənclərin mütaliəyə cəlb edilməsinə çalışmalıyıq. Ona nail olmalıyıq ki, gənclər oxumağı sevsinlər, siyahıda göstərilən əsərləri mütaliə etsinlər. Bunun üçün təhsil və mədəniyyət müəssisələri işlərini yenidən qurmalı, bu istiqamətdə gənclər arasında disput və diskussiyalar keçirməli, fikir mübadiləsi aparmalıdırlar.

Qeyd edək ki, bununla əlaqədar müəssisə və təşkilatlarda tətbiq olunan muzey günlərinin keçirilməsi geniş imkanlar yaradır. Naxçıvanda yaxşı bir ənənə formalaşmışdır: ayda bir dəfə olmaqla, müəssisə və təşkilatların əməkdaşları muxtar respublikada fəaliyyət göstərən muzeylərdə olurlar. Həmin muzeylər gənclər arasında ədəbiyyat və tarix mövzusunda əsərlərin təbliğinə xeyli kömək edir.

*İnanırıq ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı gənc nəslin vətənpərvərlik, Azərbaycançılıq ruhunda tərbiyəsinə, müstəqil dövlətimizin kamil vətəndaşı, zəngin mənəviyyatlı şəxsiyyəti kimi formalaşmasında mühüm rol oynayacaqdır. Bu sərəncam elm və mədəniyyətimizə dəyərli bir töhfədir.*

**Əbülfəz QULİYEV**
**AMEA-nın müxbir üzvü**

## AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin iclasında bir sıra məsələlər müzakirə olunub

***AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclası keçirilib. Bölmənin sədri, akademik İsmayıl Hacıyev tədbiri giriş sözü ilə açaraq iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib.***

Sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqazşünaslıq şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyevin “Beynəlxalq siyasətdə terrorizm” mövzusunda elmi məruzəsi dinlənilib. Məruzədə böyük dövlətlərin geosiyasi maraqlarından, onların siyasi məqsədlərinə çatmaq üçün dünyada yaratdıqları beynəlxalq terrorizm siyasətindən və hədəfin müsəlman ölkələrinə yönəldilməsindən bəhs olunub.

Bölmənin Elmi-təşkilat şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru Orxan Bağırov Naxçıvan Bölməsində 2017-ci ildə aparılmış elmi-tədqiqat işlərinə dair hesabatla çıxış edib.

İclasda İncəsənət, Dil və Ədəbiyyat İnstitutu tərəfindən hazırlanmaqda olan “Baba Nemətullah Naxçıvani: taleyi və sənəti” məqalələr toplusu barədə institutun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev məlumat verib. Alim bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat institutlarında və Əlyazmalar Fondunda Azərbaycanın təsəvvüf alimləri sırasında xüsusi yeri olan Baba Nemətullah Naxçıvani ilə bağlı tədqiqatların aparıldığını bildirib.

Akademik İsmayıl Hacıyev sufi alimin irsi ilə bağlı tədqiqatların gücləndirilməsi istiqamətində tapşırıqlar verib.

Tədbirdə bölmənin elmi-tədqiqat müəssisələrinin şöbə və laboratoriyalarında ştatda boş qalan vakant vəzifələri tutmaq üçün elan olunan müsabiqənin vəziyyəti ilə bağlı elmi katib, filologiya üzrə fəlsəfə doktoru Əkrəm Hüseynzadə məlumat verib. O, 26 vakant yerə 25 nəfərin müraciət etdiyini bildirib.

Gündəliyə çıxarılan digər məsələ gənc laborant və baş laborantların 2017-ci ilə aid hesabatları haqqında olub. Bölmədə çalışan gənc kadrlar fəaliyyətləri dövründə gördükləri işləri heyət üzvlərinin diqqətinə çatdırıblar. Hesabatlar dinlənildikdən sonra Rəyasət Heyətində müzakirə olunub, gənc tədqiqatçılara gələcəkdə fəaliyyətlərini daha da genişləndirmək üçün istiqamətlər verilib.

Sonda cari məsələlərə baxılıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Tarixdən səslər

# Naxçıvan duzunun folklorumuzda da öz yeri, öz çəkisi var

***Naxçıvanın simvollarından biri də Duzdağ mədənidir. Tarixi mənbələrə əsasən hələ 6 min il bundan əvvəl – Nuh Peyğəmbər dövründən buradan duz çıxarılıb. Şöhrəti dünyaya səs salan İpək Yolundan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə “Duz yolu” uzanıb. Həmin ölkələrə, xüsusilə şumerlərə buradan duz daşınıb.***

Şumerlərdə duz müqəddəs sayılmış, duza səcdə etmişlər. Şumer əfsanəsi ilə Gəmiqaya, Nuh tufanı əfsanəsi üst-üstə düşür. Türkiyəli şumeroloq tədqiqatçıların araşdırmalarına görə, xüsusilə professor İlmiyyə Müzəyyən bildirir ki, şumerlər özlərinə Kəngər demişlər. Kəngərlilər isə Naxçıvanda yaşamışlar. Bu gün də Naxçıvanda Kəngərli soyadı, Kəngərli rayonu mövcuddur. Atı əhliləşdirənlər, arabanı kəşf edənlər kəngərlərdir ki, Gəmiqaya rəsmlərində ikitəkərli və dördtəkərli araba, at və atlı rəsmləri vardır. Heç şübhəsiz, bu arabalardan bir nəqliyyat vasitəsi kimi istifadə edilmiş və şumerlərə bu arabalar vasitəsilə duz daşınmışdır.

Tarixdə duzun ilk dəfə kəşf olunması da Naxçıvan diyarına məxsusdur. Duzu ilk dəfə mətbəxə gətirən oğuzlar olmuşdur. Qədim Naxçıvanın ən möcüzəli yerlərindən biri olan Duzdağın hər bir qarışında, dağında, daşında sirli-sehrli tarixin izləri gizlənib. Bu yer haqqında xeyli elmi və publisistik məqalələr yazılsa da, hələlik bu məkanın sirri tamamilə açılmayıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Naxçıvan Duz Muzeyinin yaradılması haqqında” 2017-ci il 12 sentyabr tarixdə imzaladığı Sərəncam Duzdağın tarixinin, 5 minillik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasındakı rolunun tədqiqində yeni bir mərhələnin başlanğıcını qoymaq baxımından aktual və əhəmiyyətlidir. Adıçəkilən sərəncam bu istiqamətdə yeni tarixi-elmi faktların üzə çıxarılmasına da təkan verəcəkdir.

Duzdağla bağlı xalq arasında yayılan rəvayətlərdən birində deyilir ki, Nuh Peyğəmbərin nəvəsi Türk xanın oğlu Tütək xan Duzdağ ərazisində ət yeyərkən tikəsi yerə düşmüş, tikənin düşdüyü yerdə olan duz parçaları ətin dadını dəyişmiş, onu yedikdə daha dadlı olduğunu hiss etmişdir. O, bunun duz olduğunu öyrənmişdir. O vaxtdan duz mətbəxdə istifadə edilməyə başlamışdır. Bu rəvayətlərdən bəzilərində Duzdağdan Qaraquca (Qaravuşa) qədər yeraltı yol olduğu da söylənir. Düzdür, bu fikirlər rəvayət olsa da, unutmaq olmaz ki, onlar müəyyən reallıqlara söykənir. Tədqiqatçıların ərazidə tapdıqları daş alətlər, keramika və obsidian qırıqları buranın qədim tarixə malik bir yer olduğunu təsdiq edir.



Duzla bağlı ən zəngin folklor materialları da Naxçıvandadır. Naxçıvan folklorunda duza aid xeyli atalar sözləri, bayatılar, xalq təbabəti nümunələri, əfsanə və rəvayətlər mövcuddur. Bu barədə bir neçə atalar sözünə və onların açıqlamasına nəzər sala bilərik: “Hələ duza gedir”. Açıqlamasını belə izah etmək olar: Bir insan hələ naşıdır, həyat çətinliklərini görməmiş, duza gedib oradan duz gətirməyin ağırlığını hələ dərk etməmişdir.

“Dəvəni toya çağırdılar. O da ağladı ki, məni ya Naxçıvana duza göndərirlər, ya da Bərgüşada düyüyə”. Bu atalar sözü də duzun ağırlığından, daşınmasının zəhmətli iş olmasından xəbər verir. Ona görə də deyirlər: “Qız yükü, duz yükü”. Yəni duz yükü ağır olduğundan, qız tərbiyə edib, böyüdüb, boya-başa çatdırmaq da bir o qədər ağır işdir.

“Bir gün duz yediyin yerə qırx gün salam ver”. Açıqlaması belədir: Yəni heç vaxt nankorluq etmə, sənə xeyir verən insanlara, yerlərə, məkanlara sədaqətli ol. Yediyin məhsula hörmətlə yanaş. Sənə edilən yaxşılığı unutma və onun qədrini bil. Bu atalar sözünə bənzər daha bir atalar sözü də var ki, onun semantikası elə dediyimiz anlamdadır. Yaxud da deyilir: “Duz-çörək haqqını bilməyən kor olar”.

Duzla bağlı deyimlər də vardır: “Duz-çörək kəsmək” xalq deyimi də Naxçıvan regionunda geniş işlənməkdədir. Duz və çörək xalqın ən müqəddəs nemətidir və həmişə qorunmalıdır. O, evin bərəkətidir. Bu, o anlamda işlədilir ki, kimlə müqəddəs duz-çörək kəsilirsə, birlikdə yemək yeyilirsə, o adama sədaqətli olmalı, ona hörmətlə yanaşılmalıdır. Əlbəttə, hər adamla da duz-çörək kəsmək olmaz, bu ölçülüb-biçilib, düşünülməlidir. Buna görə də duz insanların andaman yeri olmuşdur. “Bu duz-çörək mənə qənim olsun”, – demişlər.

“Əlimin duzu yoxdur” deyimində bir insanın başqalarına etdiyi yaxşılıqlar, qayğılar başa düşülməyəndə, ona qarşılıq verilmədiyində işlənilir.

“Naxçıvanın duzu, qızı, qarpızı”. Bu Naxçıvan deyimində də Naxçıvan duzu təriflənir, həmçinin Naxçıvan qız-gəlininin gözəlliyinə, habelə burada dadlı qarpız yetişdirilməsinə işarə olunur.

Bütün bunlar Naxçıvanın iqtisadiyyatı, həyat tərzi ilə əlaqədar, insanların həyat təcrübələri ilə bağlı duzla əlaqədar deyilmiş atalar sözləridir.

Duzla bağlı bayatılar da vardır. Onlara da nəzər salaq:

*Naxçıvanın düzü var,*
*Büllur kimi duzu var.*
*İki könül bir olsa,*
*Kimin ona sözü var.*

Mərhum folklorşünas alim Rafiq Babayev bu bayatını belə şərh edirdi ki, qız-gəlinin xörəyin duzunu artıq etməsi nişanlısını, həyat yoldaşını çox sevməyinə – iki könlün bir olmasına işarədir.

Başqa bir bayatıda isə belə deyilir:

*Naxçıvanın duz dağı,*
*Duz təpəsi, duz dağı.*
*Çəkdi yar sinəm üstə,*
*Dağ üstündən yüz dağı.*

Bu bayatıda da sevgidə, eşqdə əzablara, çətinliklərə qatlanan bir aşiqin ürək yanğıları təsvir olunur ki, bu da duz dağı ilə müqayisə edilir.

Duz həm də xalqın inancı, inamı olmuşdur. Ona görə də “duz haqqı” ifadəsi də işlənməkdədir. Belə bir inanc da var: “Duz yerə töküləndə savaş olar, gərək duzun üstünə qənd qoyasan”.

Duz, xüsusilə insanları xarakterizə etmək məqsədilə istəkli, şirin mənasında işlədilir. “Çox duzlu uşaqdır”, “Nazlı-duzlu qızdır”.

Duzla bağlı tapmacalar da vardır: “Məni tək yeməzlər, mənsiz də yemək olmaz”.

Yuxu yozumlarında isə belə deyilir: “Yuxuda duz görənin və ya duz daşıyanın, reallıqda dişi ağrıyar”.

Duz xalq təbabətində də işlənməkdədir. “Diş ağrıyanda yerinə duz qoy və duzla qarqara et”, – deyərlər. Bütün bunlar bir daha göstərir ki, Naxçıvan qədim diyar olmaqla, həm də ilk duz məkanıdır.

Qədim Naxçıvanın ən möcüzəli yerlərindən biri olan Duzdağ haqqında xeyli elmi və publisistik məqalələr yazılıb. Duzla bağlı Naxçıvan folklor nümunələrinin toplanması, araşdırılması həm folklorşünaslığımızı dəyərli mənbə kimi zənginləşdirər, həm də bu tarixi yerin öyrənilməsi baxımından faydalı olar.

**Ramiyyə ƏKBƏROVA**

# Milli mədəniyyətin daşıyıcısı olan Naxçıvan xalçaları

***Qədim və zəngin maddi-mədəniyyət nümunələrimizi yaşadan və təbliğ edən ünvanlardan biri də Naxçıvan Dövlət Xalça Muzeyidir. Bu yaxınlarda muzeyə gəlib, burada nümayiş olunan Azərbaycan xalqının milli mədəniyyətinin daşıyıcısı olan xalça və xalq tətbiqi sənəti nümunələri ilə tanış olduq.***



Bələdçi Səadət Vəliyeva muzey haqqında çox geniş məlumat verdi. O qeyd etdi ki, Naxçıvan Dövlət Xalça Muzeyi 1998-ci ilin aprelindən fəaliyyət göstərir. Muzeydə 3 mindən çox eksponat vardır. Bu gün muzeyin ekspozisiyasında 300-dən çox eksponat sərgilənir. Bunlar arasında, ilk növbədə, xalçalar, xalçaçılıq məmulatları, qədimdə insanların toxuculuq zamanı istifadə etdiyi alətlər və məişət əşyaları yer alır. Muzeydə Təbriz-Naxçıvan, Gəncə-Qazax, Quba, Şirvan, Qarabağ xalçaçılıq məktəblərinə məxsus XVIII-XIX əsrlərə aid xalça nümunələri də saxlanılır. Naxçıvan xalçaları qədim diyarımızın əksər yaşayış məntəqələrində toxunub.

Muzeydə, həmçinin 2006-cı ildə Bakıda fəaliyyət göstərən "Azər-İlmə" xalça sexi tərəfindən toxunan ümummilli lider Heydər Əliyevə həsr olunan xalça da diqqəti cəlb edir.

Toxunuş texnikasına görə xalçalar iki yerə ayrılır – xovsuz və xovlu xalçalar. Xovsuz xalçalar daha sadə üsulla: dolama, keçirtmə, düyünləmə kimi üsullarla toxunur. Xovsuz xalçaların üzərində olan naxışlar da xovlu xalçalara nisbətən sadə olur və daha asan ərsəyə gəlir. Xovlu xalçalar isə daha mürəkkəb üsulla toxunur. Bu zaman mürəkkəb ilmə, qulabı ilmə, dolama ilmənin mürəkkəb formasından istifadə olunur. Üzərində olan naxışlar da digər xalçalara nisbətən mürəkkəb, çətin toxuna bilən naxışlardır. Azərbaycan xalçaları xovuna görə dünyada məşhurdur.

Ekspozisiyanın əvvəlində ilkin dövrlərə aid xovsuz xalça növü olan keçə sərgilənir. Keçə qədim zamanlarda döymə üsulu ilə su və yundan hazırlanırdı. Onu digər xalçalardan fərqləndirən xüsusiyyət keçənin toxunmaması, döyülərək əldə olunmasında idi. Keçə, əsasən, döşəmədə istifadə olunurdu, ancaq daha sonra qadın və kişi geyimlərinin hazırlanmasında da keçədən istifadə edilib. Müasir dövrdə də keçəçilik ənənəsi saxlanılır. 2013-cü ildə Naxçıvan Regional Peşə Tədris Mərkəzinin təşkil etdiyi keçəçilik kursunun müdavimləri tərəfindən müasir keçə nümunələri hazırlanıb.



Xovsuz xalçanın 8 növü vardır. Bunlardan biri də çətən növüdür. El arasında həsir adı ilə də tanınır. Həsir qamış yarpağından və "cığalı" adlanan otdan hazırlanırdı. Evə döşənən xalçaların altından nəmişliyi götürmək üçün istifadə olunurdu. Daha çox dağlıq və dağətəyi rayonlarda istifadə edilən xalça növüdür. Xalça Muzeyində sərgilənən çətən xalça növü Babək rayonunun Nehrəm kəndinə aiddir.

Səadət xanımın sözlərinə görə, Naxçıvan xalçaları Azərbaycan xalçası adı altında Türkiyə və digər xarici ölkələrdə, Sankt-Peterburqdakı Ermitaj, İngiltərədəki Viktoriya və Albert muzeylərində sərgilənir.

2500 ildən çox yaşı olan, məşhur "Şeyx-Səfi" xalçası hazırda Londonda Viktoriya və Albert Muzeyində Azərbaycan xalçası adı altında nümayiş olunur.

Xovsuz xalçanın bir növü də palazdır. Kiçik hissə halında toxunur, daha sonra birləşdirilir. Sadə toxunuşu ilə seçilən palaz digər xalça növlərindən fərqli olaraq xalçaçılığın birinci mərhələsinə aid edilir. Palaz və cecim xalça növlərində naxışdan istifadə olunmayıb. Daşınması və istifadəsi asan olduğu üçün bu xalça növlərinə çox evlərdə rast gəlmək olar.

Xovsuz xalça növlərindən biri də kilimdir. Kilim xalçaçılığın ikinci mərhələsinə aid xalça növüdür. Əvvəllər kilimdə naxışdan istifadə olunmurdu. Daha sonralar üzərində damğa, dama-dama, xoruz gözü, damalı kimi naxışlar olan kilimlər toxunmağa başlanılıb.

Zili də eynilə xovsuz xalça növüdür. Toxunuş texnikası onu digər xalçalardan fərqləndirir. Üzərində olan naxışlar xüsusi məna kəsb edir. Məsələn, kvadrat formalı fiqurlar evin sahəsinə, rombvarı fiqurlar isə qadın, qadının həyat yoluna bənzədilib. Ümumiyyətlə, həm rəngi, həm də üzərində olan naxışlara görə müxtəlif yerlərdə – dini mərasimlərdə, yas və toy mərasimlərində istifadə olunub.

Həmçinin muzeydə xalçaçılıq məmulatları – xurcun, duz torbası, qədimdə köçəri həyat sürən insanların sandıq kimi istifadə etdikləri, içərisində xalça, palaz, gündəlik geyim əşyaları olan, eyni zamanda qızların cehizliyi kimi də istifadə olunan xalçaçılıq məmulatı məfrəş və heybə sərgilənir. Xurcunların bir hissəsi xovlu xalça şəklində toxunur ki, burada daha çox mürəkkəb naxışlardan istifadə olunur. Bir hissəsi də palaz, cecim formasında xovsuz xalça növü kimi toxunur. Qədimdə insanlar xurcunun içərisinə ərzaqlarını, əşyalarını yığırdılar. Duz torbası isə xovlu və xovsuz xalçaların bir-birini əvəzləməsi ilə toxunub və içərisinə duz yığmaq üçün istifadə edilib. Muzeydə yunu təmizləmək üçün yundarağı və təmiz yundan ip hazırlamaq üçün cəhrə də sərgilənir.

Xalçalar artıq çeşnilər əsasında toxunur. Qədimdə bu üsuldan istifadə olunmayıb. XIX əsrdən etibarən çeşnilər əsasında toxunan xalçalar iki yerə bölünüb – emalatxanalarda çeşni əsasında toxunan xalçalar və evlərdə toxunan xalçalar.

Evlərdə toxunan xalçaların əksəriyyətində də çeşnidən istifadə edilmirdi, yəni insan öz təxəyyülünə, öz düşüncə tərzinə, fantaziyasına əsaslanaraq xalça üzərinə naxışlar salırdı. İlk istifadə olunan naxış növü həndəsi formalı naxış elementi olub. Sonra bunlar formalaşaraq daha da təkmilləşib. Bundan sonra artıq insan və quş təsvirlərindən istifadə olunubdur.

Ümumiyyətlə, Naxçıvan xalçaları ilmələrin sıxlığı, üzünün xovunun qalınlığı ilə seçilir. Naxçıvan iqliminin daha sərt və dəyişkən olması ilə əlaqədar bu bölgəyə məxsus xalçalar ikiqat ilmə şəklində toxunub.

Xalçalar üzərində olan naxışlar dörd qrupa bölünür – həndəsi, antropomorf, zoomorf və nəbati. Gül-çiçək təsvirlərinin verildiyi naxış növü nəbati adlanır. Bütün naxışlar müxtəlif mənaları ifadə edir. Məsələn, qızılgül qədimdə sevginin və cənnətin simvolu sayılıb. Ağac təsvirləri isə bir ailənin kökünü, möhkəmliyini bildirib. Xovlu xalça üzərində buta şəkli təsvir olunub. Buta milli naxışımızdır, od-alov, göz yaşı kimi mənaları ifadə edir. Görünüş baxımından tovuzquşunun lələyinə də bənzədilir. Tovuzquşunun lələyinə daha çox oxşayan dilikli butanın toxunuşunda fərqli rənglərdən istifadə olunur. Eyni zamanda xovlu xalçalar üzərində quş təsvirləri də verilir. Quş qədimdə yerlə göy arasında əlaqənin simvolu sayılıb. Bu da insanların dini inancları ilə bağlı bir simvol idi.

Muzeydə müasir üsullarla xalçalar toxunaraq buraya gələn qonaqlara əyani nümayiş etdirilir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə əlaqədar muzeydə xalça üzərində onun loqosu toxunur.

Naxçıvan Dövlət Xalça Muzeyi yerli qonaqlarla yanaşı, xarici qonaqların da diqqətini cəlb edir. Muzey artıq mədəni mərkəzə çevrilib. Burada xalçaçılıqla bağlı mütəmadi sərgilər keçirilir, kitab təqdimatları, elmi konfranslar təşkil olunur. Bütün bunlar da mədəni irsimizin, milli dəyərlərimizin qorunmasında, eyni zamanda tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsi və təbliğində böyük əhəmiyyətə malikdir.

**Güntac ŞAHMƏMMƏDLİ**
***Naxçıvan Dövlət Universitetinin Radiotelejurnalistika ixtisası üzrə I kurs magistrantı***

# Altı Avropa rekordunu yeniləyən idmançımız

***Naxçıvan Muxtar Respublikasında idmana böyük qayğı göstərilir. Bu qayğı keçirilən beynəlxalq yarış və turnirlərin nəticələrində də özünü əks etdirir. Bu yaxınlarda Kosovonun paytaxtı Priştina şəhərində ağır atletika üzrə yeniyetmələr arasında Avropa çempionatında da biz bunun bir daha şahidi olduq. Qitə birinciliyində ağır atletlərimiz vətənə uğurlu nəticələrlə döndülər. Ancaq Avropanın ən güclü atletlərinin mübarizəsində diqqəti bir məqam daha çox çəkdi: Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur rayonunda fəaliyyət göstərən ağır atletika bölməsinin yetirməsi Tərmenxan Babayev Priştinada nəinki qitə birinciliyinin qızıl medalını qazandı, həm də bu nəticəyə 6 rekorda birdən imza ataraq nail oldu.***

Tərmenxan Babayev 2002-ci ildə Şərur rayonunda dünyaya gəlib. Atası və əmisi güləşçi olan Tərmenxanın bu sahəyə marağı 6 yaşından başlayıb. Atasının istəyi ilə bu növü seçən yeniyetmə idmançının güləşçi kimi karyerası alınmayıb. Ağır atletika məşqçisi Şəfi Hüseynov güclü idmançı perspektivinə malik olan Tərmenxanı öz məşqinə dəvət edib. Fiziki göstəricilərinə görə həmyaşıdlarından xeyli fərqlənən Tərmenxan ağır atletika ilə 10 yaşında məşğul olmağa başlayıb. Həmin vaxtlar Azərbaycanın yeniyetmələrdən ibarət ağır atletika yığması təlim-məşq toplanışı keçmək üçün Şərur Olimpiya-İdman Kompleksinə gəliblər. Azərbaycan millisinin məşqçiləri Nizami Paşayev və Asif Məmmədov naxçıvanlı gənclərə seleksiya xarakterli məşqlər də keçiblər. Bir neçə yeniyetmə ilə yanaşı, Tərmenxan da bu məşq prosesində özünü göstərməyə çalışıb. Böyük potensiala malik olan idmançı bir neçə ay ərzində ciddi irəliləyişlər əldə edib. Şərur rayonuna yenidən qayıdan məşqçilər qarşılarında başqa Tərmenxan görüblər. Bundan sonra 11 yaşlı idmançımız ölkə birinciliyinə dəvət alıb və özündən 5 yaş böyüklərin mübarizəsini ilk 7 pillədə başa vurub. O gündən Tərmenxan Babayev Azərbaycan yığmasının heyətinə cəlb olunur. Fərqli fiziki göstəriciyə malik olan idmançımız 12 yaşından başlayaraq beynəlxalq turnirlərdə mübarizə aparmağa başlayır.

2016-cı ildə yeniyetmələr arasında Avropa çempionatının dördüncüsü olan Tərmenxan Babayev, cari ildə Tailandın paytaxtı Banqkokda keçirilən yeniyetmələr arasında dünya çempionatında uğurlu çıxışı ilə yadda qalır. O, 77 kiloqram çəki dərəcəsində mübarizə apardığı "B" qrupunun birincisi olur. Və bu nəticə sayəsində idmançımız 2018-ci ildə keçiriləcək gənclərin olimpiadasına vəsiqə qazanır.

Bəs Tərmenxan Kosovoda ona bəslənilən ümidləri necə doğrulda bildi? Məşqçilər keçirilən yarışdan sonra bildiriblər ki, biz ondan yalnız qızıl medal gözləyirdik, lakin onun bir neçə rekord qıracağına inanmırdıq. Rekordlara gəlincə... Priştinada keçirilən turnirdə 85 kiloqram çəki dərəcəsində mübarizə aparan atletimiz birdən qaldırma hərəkətində hər üç yanaşmasını uğurla yerinə yetirərək sonda 130 kiloqramı qaldırıb. O, bu nəticə ilə ən yaxın izləyicisi olan bolqar Stefço Xristovu 15 kiloqram qabaqlayaraq birinci olur. Tərmenxan təkanla qaldırma hərəkətində daha uğurla çıxış edib. O, ilk yanaşmasında 150 kiloqram çəki dərəcəsinin öhdəsindən gəlib. Bununla da, macarıstanlı atlet Adrian Terebesinin bu ilin aprel ayında Banqkokda keçirilən yeniyetmələrin dünya birinciliyində müəyyən etdiyi Avropa rekordunu (146 kiloqram) düz 4 kiloqram yeniləyib. O, eyni zamanda yunanıstanlı atlet Evangelios Qaliatsatosun 2015-ci ildə İsveçin Landskrona şəhərində keçirilən yeniyetmələrin Avropa birinciliyində bu çəkidə toplamda müəyyən etdiyi Avropa rekordunu (276 kiloqram) da təzələyib. Atletimiz ikinci yanaşmasında 155 kiloqramı qaldıraraq həm bu hərəkətdə, həm də toplamda daha 2 rekord yeniləyib. Sonuncu yanaşmasında 161 kiloqramın da öhdəsindən gələn Tərmenxan, rekordlarının üzərinə ikisini də əlavə edib. Atletimiz toplam 291 kiloqram (130+161) nəticə ilə Avropa birinciliyini çempion kimi başa vurub. Həm də o, bu uğura 6 Avropa rekordunu yeniləyərək nail olur.




Tərmenxan Babayevlə söhbətimiz də elə bu mövzuda oldu. İdmançımız deyir ki, bu uğurlar əziyyətsiz başa gəlmir və bunlara gərgin məşqlər sayəsində nail olub. Boş vaxtlarında zala gedir və öz səhvləri üzərində işləyir. Bu əziyyətin qarşılığını isə yarışlarda alır. Digər tərəfdən, burada idmançının əsas gücü onun bu idman növünə olan marağı və həvəsidir. O, körpücük üzərinə çıxmamışdan öncə qətiyyətli olmalıdır. Qətiyyət hər bir idmançını uğura daha tez çatdırır.

Tərmenxan Babayevi güclü idmançı kimi yetişdirən isə onun şəxsi məşqçisi Şəfi Hüseynovdur. İdmançı barəsində qürurla, fərəhlə danışan Şəfi müəllim ona böyük ümidlər bəslədiyini vurğuladı: "Kiçik bir zaldan gedib Avropanı fəth etmək hər bir idmançıya qismət olmur. Elə məşqçiyə də. Bu, mənim üçün qürurverici bir haldır. Bunun əsas səbəblərindən biri aid olduğumuz nazirliyin bizimlə hər zaman maraqlanması, bizlərə dəstək olmasıdır. Tərmenxanın hələ 15 yaşı var və qazanacağı uğurlar qabaqdadır, onun potensialı daha böyük uğurlara imkan verir. Onun gələn il keçiriləcək gənclərin olimpiadasında qızıl medal qazanacağına inanıram. Daha sonra Tokio olimpiadası olacaq və inanıram ki,Tərmenxan yenə də himnimizi orada səsləndirəcək. Tam əminliklə deyə bilərəm ki, Naxçıvan Muxtar Respublikasına olimpiadalarda ilk qızıl medalı da məhz Tərmenxan Babayev qazandıracaq".

İdmançımız özü də daha böyük uğurlar qazanacağına inanır: "Məşq etməyim üçün hər bir şərait yaradıldı və bundan maksimum istifadə edib ümidləri doğrultdum. Amma bununla kifayətlənmək istəmirəm. Bunlar hələ karyeramda ilk addımlarımdır. Əsas hədəfim isə olimpiya çempionu olmaqdır. Qarşıda böyük yarışlar var. Argentinanın paytaxtı Buenos-Ayresdə keçiriləcək gənclərin olimpiadasında uğur qazanmaq istəyirəm. Məşqçimin mənim üzərimdə böyük əməyi vardır. İstəyirəm ki, mübarizə apardığım bütün yarışlarda qalib olub Naxçıvanın idman ənənələrini daha yüksəkdə tutum".

Məşqə, sevdiyi idman növünə həvəslə yanaşan Tərmenxanın böyük zirvələr fəth etməsi üçün kifayət qədər potensialı var. Buna görə də biz ondan ağır atletika idman növündə Naxçıvana olimpiadadan ilk qızıl medal gətirməsini gözləyirik.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 860